# Azərbaycan Milli Elmlər Akademiyasının
# Mərkəzi Elmi Kitabxanası (MEK)

## 2015-ci il üzrə

## H E S A B A T

**Hesabatın sənədləşdirilməsi:** Hesabat AMEA-nın Mərkəzi Elmi Kitabxanasının 15 noyabr, 2015-ci il tarixli ümumi iclasında dinlənilmiş və qəbul edilmiş, şöbə və bölmə rəhbərlərinin 24 dekabr, 2015-ci il tarixli iclasında müzakirə edilmiş və düzəlişlər verilmiş, MEK İdarə Heyətinin 24 dekabr, 2015-ci il tarixli iclasında müzakirə edilmiş və təsdiq olunmuş (protokol əlavə olunur) və AMEA RH Elm və Təhsil şöbəsinə çap və elektron formatda təqdim olunmuşdur.

**Təşkilatın kateqoriyası:** AMEA Rəyasət Heyəti nəzdindəki təşkilat.

**A: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMAN VƏ SƏRƏNCAMLARI, AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRAR VƏ SƏRƏNCAMLARI VƏ AMEA RƏYASƏT HEYƏTİNİN QƏRARLARINDA NƏZƏRDƏ TUTULMUŞ FƏALİYYƏT**

**1.0.** ***Yubiley tədbirlərində MEK-in iştirakı:***

1.1. Heydər Əliyev irsinə dair materiallar sistemləşdirilmiş, rəqəmsallaşdırılmış, Milli Rəqəmsal Yaddaş bazasına salınmış, materialların rəqəmsal və çap formatda daimi sərgisi hazırlanmış və nümayişə qoyulmuşdur.
1.2. Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində müəllifi olduğu əsərlərdən ibarət materiallar sistemləşdirilmiş, rəqəmsallaşdırılmış, Milli Rəqəmsal Yaddaş bazasına salınmış, materialların rəqəmsal və çap formatda sərgisi hazırlanmış və nümayişə qoyulmuşdur.
1.3. Xalqın sevimli şairi Əliağa Vahidin 120 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində müəllifi olduğu əsərlərdən ibarət materiallar sistemləşdirilmiş, rəqəmsallaşdırılmış, Milli Rəqəmsal Yaddaş bazasına salınmış, materialların rəqəmsal və çap formatda sərgisi hazırlanmış və nümayişə qoyulmuşdur.
1.4. Akademik Bəkir Nəbiyevin 85 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində müəllifi olduğu əsərlərdən ibarət materiallar sistemləşdirilmiş, rəqəmsallaşdırılmış, Milli Rəqəmsal Yaddaş bazasına salınmış, materialların rəqəmsal və çap formatda sərgisi hazırlanmış və nümayişə qoyulmuşdur. Nizami adına Ədəbiyyat İnstitutu ilə birgə Bəkir Nəbiyevin biblioqrafik sorğu kitabı hazırlanmış və çap edilmiş, "Üzeyir Hacıbəylinin ömürnaməsi" və "Vətəndaş. Alim. Ziyalı" biblioqrafik sorğu kitablarının təqdimatları, eləcə də anım tədbiri keçirilmişdir.
1.5. Akademik Mikayıl Useynovun 90 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində aidiyyatı materiallar sistemləşdirilmiş, rəqəmsallaşdırılmış, Milli Rəqəmsal Yaddaş bazasına salınmış, materialların rəqəmsal və çap formatda sərgisi hazırlanmış və nümayişə qoyulmuşdur.
1.6. Akademik Məhərrəm Məmmədyarovun biblioqrafik sorğu kitabı hazırlanmış və çap olunmuşdur.
1.7. Akademik Ağamusa Axundovun biblioqrafik sorğu kitabı hazırlanmış və çap olunmuşdur.
1.8. Akademik Ziyad Səmədzadənin biblioqrafik sorğu kitabı hazırlanıb çapa verilmişdir.
1.9. Akademik İlyas Babayevin biblioqrafik sorğu kitablarının hazırlanması yekun mərhələdədir.
1.10. Akademik Telman Əliyevin biblioqrafik sorğu kitablarının hazırlanması yekun mərhələdədir.
1.11. Vəli Baxşəliyev, Zümrüd Quluzadə, Şahbaz Muradov və Yaşar Qarayevin biblioqrafik sorğu kitabının hazırlanması əsas mərhələdədir.

**2.0.** ***MEK-in yeni Nizamnamə və Strukturunun hazırlanıb təqdim olunması:***

2.1. Struktur islahatları aparılmış, kitabxananın strukturunda İnformasiya Resursları Mərkəzi yaradılmışdır. Mərkəzə informasiya texnologiyalarının hazırlanması və tətbiqi, milli rəqəmsal yaddaşın formalaşdırılması, innovativ layihələrin hazırlanması və icrasına nəzarət funksiyaları həvalə edilmişdir. Bilavasitə kitabxana strukturunda biri-birinin işini təkrar edən şöbə və bölmələr ləğv edilmişdir. İnformasiya vahidlərinin mərkəzləşdirilmiş və hesabatlı şəkildə cəlb edilməsi və sənədləşdirilməsi məqsədi ilə Fondların formalaşdırılması bölməsi yaradılmışdır. Daxil olan informasiya vahidlərinin

optimal konveyer üsulu ilə komplektləşdirmə, kataloqlaşdırma və fondların mühafizəsi bölmələrinə sistem şəklində hərəkəti təmin edilmişdir. Elmi Şura ləğv edilmiş, İdarə Heyəti, Daxili Nizam-intizam komissiyası, İnformasiya Mənbələrinin Qiymətləndirmə Komissiyası yaradılmışdır. İşçilər yeni Struktura uyğun yerləşdirilmişdir.

2.2. İşçilərin attestasiyası üçün alət qismində test hazırlanmış, testə Azərbaycan dili, Azərbaycan tarixi, xarici dillər, kompüter proqramları və alətləri, kommunikasiya və davranışı qiymətləndirən suallar daxil edilmişdir. MEK-də çalışan işçilər və yeni işə qəbul olunmaq üçün sənəd verən namizədlər sınaqdan keçirilmişdir. Sınaq üçün xüsusi zal təchiz olunmuş, kompüterlər nizamlanmış, işçi heyət təlimatlandırılmış, test sənədlərini üzərindən adlar götürülərək yoxlanılmaq üçün müxtəlif profilli mütəxəssislərə anonim şəkildə təqdim olunmuşdur.
2.3. Kitabxana-Xidmət şöbəsinin yeni sistem və ardıcıllıq üzrə çalışmasını nəzərə alaraq bölmələrin hər biri üçün Əsasnamə və hər vəzifə üçün Vəzifə öhdəlikləri hazırlanmış, sənədlər üzrə təlimatlandırma aparılmışdır.
2.4. İşçi heyət üçün ingilis dili kursları tətbiq olunmuşdur.

**3.0. *AMEA-nın əsas binasından MEK üçün inşa edilmiş yeni binaya MEK-in kitab fondlarının, avadanlıqlarının və işçilərinin köçürülməsi.***

3.1. Köçürülmə planı hazırlanmış, MEK-in işçi heyəti tam şəkildə səfərbər olunmuş, işçilərin peşə profilinə uyğun işlər müvəqqəti olaraq dayandırılmış, işçilər kitabların fondlardan boşaldılması, qablaşdırılması, nömrələnməsi, yeni binaya gətirilib boşaldılması, saxlanclarda yerləşdirilməsi, kataloq və kartotekaların yenidən yığılmasına səfərbər olunmuş, daşınma üçün material ehtiyatı görülmüş, köçmənin effektivliyinin təmin edilməsi üçün modul hazırlanmış, əsas və yeni binada işlər paralel aparılmışdır.
3.2. Elektron avadanlıq və məlumat bazalarının köçürülməsi zamanı İRBİS proqramındakı verilənlər bazası çox çətinliklə də olsa bərpa edilmiş, işçilərə məxsus elektron məlumatlar, sənəd və faylların surəti çıxarılmış və yeni binada işçilərin istifadəsinə verilmişdir.
3.3. Əlavə işçi qüvvəsi və könüllülər (Ərəb-Fars tərcüməçilər şəbəkəsi, Mülki Müdafiə qoşunları və universitetlərdən könüllü tələbələr) cəlb olunmuşdur. İşçilərin maaşına intensiv köçmə prosesində iştiraka görə qənaət olunmuş maaş fondundan 50-100% əlavə edilmişdir.
Baxmayaraq ki, AMEA RH Qərarında yalnız köçmə planının hazırlanmasına 3 ay vaxt verilmişdir, MEK təxirə salmadan 2014-cü ilin 1 noyabr tarixində köçmə prosesinə başlamış və 28 may, 2015-ci il tarixində (7 aya) köçürülmə prosesini vaxtından əvvəl başa çatdırmışdır.

**4.0. *Kitab, qəzet, jurnal və başqa formatda olan ədəbiyyatın yoxlanılması, əsas və yardımçı fondlarda yerləşdirilməsi və sənədləşdirilməsi.***

4.1. 2015-ci ilin iyun-iyul aylarında yeni binaya köçürülmüş kitab fondları inventar kitabı və topoqrafik kataloqlara əsasən iki dəfə yoxlanılmış, topoqrafik kataloqlar və köçürülmüş ədəbiyyat inventar-sıra nömrələri ilə uzlaşdırılmış və düzülmüşdür. Qaydaya uyğun sıralanmamış Nadir Nəşrlər fondu və "B" formatı yenidən ardıcıllıqla sıralanmış və rəflərdə yerləşdirilmiş, yerində olmayan kitabların inventar nömrələri qeyd olunmuş, aşkar olunmaması səbəbləri araşdırılmış və sənədləşdirmə prosedurları icra olunmuşdur. 1 378 232 sayda informasiya vahidi qeydə alınmışdır.
4.2. MEK-in kitabxana fondlarında yararsız vəziyyətə düşmüş, itmiş, sənədləşdirilmədən kitabxanadan çıxarılmış və yerində aşkarlanmamış mənbələrə, eləcə də kitabxanada mövcud olan, lakin sənədləşdirilməmiş mənbələrə dair aktlar, fotoşəkillər və protokol ilə sənədləşdirmə aparılmışdır: fonddan və kataloqdan çıxarılması barədə sənədləri olmayan və yerində aşkarlanmayan 11 965 nüsxə ədəbiyyat balansdan silinmiş; istifadəyə yararsız hala düşmüş, aktuallığını itirmiş xırda broşuralardan ibarət 2 872 nüsxə kitab balansdan silinmiş; rus ədəbiyyatı fondunun "C" formatında yararsız hala düşmüş, adı və inventar nömrəsinin aydınlaşdırılması mümkün olmayan miqdarı 200 nüsxə kimi hesablanan ədəbiyyat fonddan xaric edilmişdir; balansdan çıxarılması sənədləşdirilmiş, lakin Kitab Fondundan fiziki olaraq çıxarılmamış Azərbaycan və rus dilində ədəbiyyata yenidən baxılmış, əhəmiyyətli nüsxələr seçilərək sistemləşdirilmiş və fonda daxil edilmiş, qalan nüsxələr atılmışdır; Fondlar yoxlanıldıqda kitabxanaya aid olmayan 530 sayda sənədləşdirilməmiş rus ədəbiyyatı aşkarlanmış, fiziki baxımdan yararlı və məzmunca əhəmiyyət kəsb edən nüsxələr seçilmiş və fonda salınmaq üçün Komplektləşdirmə bölməsinə təhvil verilmişdir; oxucular tərəfindən qaytarılmamış 431 nüsxə ədəbiyyat balansdan çıxarılmış; içində çap olunmamış əlyazma vərəqlər olan 493 sayda

dəftərxana qovluğu məzmun əhəmiyyəti kəsb etməməsi səbəbindən kitabxanadan fiziki olaraq xaric edilmişdir; aspirantların yataqxanasında yararsız hala düşmüş 13 154 nüsxə kitab aktlaşdırılmışdır.

4.3.Nadir kitab fondu, Qərbi Avropa ədəbiyyatı və Lüğətlər fondunda yenidən topoqrafik kataloq tərtib edilmişdir. Jurnal, Qəzet və Ardı davam edən nəşrlər fondlarında daxili kataloqların yenidən tərtibatına başlanılmışdır. 23 komplekt qəzet cildlənmişdir. 500 nüsxə avtoreferat ümumi ədəbiyyat fondundan çıxarılıb avtoreferatlar fonduna təhvil verilmişdir.

4.4.Mübadilə fondundan Bakı və regionların 86 kitabxanasına 9 291 nüsxə, sərgilərə və başqa təşkilatlara isə 921 nüsxə və oxuculara 100 kitab hədiyyə edilmişdir.

4.5.Yoxlamanın nəticələrinə əsasən kitabxanada mövcud olan çap məhsullarının real sayı aşağıdakı kimi qeydə alınmışdır: 897 800 kitab (Azərbaycan, rus, avropa dilləri, şərq ədəbiyyatı, Nadir fond, şəxsi kolleksiyalar daxil olmaqla), 303 322 jurnal (Azərbaycan, rus, avropa dilləri, şərq ədəbiyyatı, Nadir fond, şəxsi kolleksiyalar daxil olmaqla); 2 757 qəzet, 66 561 ardı davam edən nəşrlər, 45 905 avtoreferat, 5 673 dissertasiya, 642 fotosurət.

**5.0. *Bibilioqrafik sorğu kitablarının hazırlanması.***

Məhərrəm Məmmədyarov, AğamusaAxundov və Bəkir Nəbiyevin biblioqrafik sorğu kitabları çap olunmuş, Ziyad Səmədzadənin biblioqrafik sorğu kitabı çapa verilmiş, İlyas Babayev və Telman Əliyevin biblioqrafik sorğu kitablarının hazırlanması yekun mərhələdədir, Yaşar Qarayev, Vəli Baxşəliyev, Zümrüd Quluzadə və Şahbaz Muradovun biblioqrafik sorğu kitablarının hazırlanması əsas mərhələdədir.

**B: 2015-Cİ İL ÜÇÜN NƏZƏRDƏ TUTULMAMIŞ, LAKİN MEK TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLMİŞ ƏLAVƏ TƏŞƏBBÜSLƏR.**

**Mərkəzi Elmi Kitabxana 10 aya əsas binadan yeni binaya köçmə prosesini başa çatdırmış, fondları nizamlamış, kataloqları bərpa etmiş, təhvil-təslimi bitirmiş, işçi heyəti təlimatlandırmış, xidmət proqram modulları hazırlamış, 2015-ci ilin sentyabr ayında tam həcmdə fəaliyyətə başlamış və yeni binada oxucuların istifadəsinə verilmişdir.**

**6.0. *İnformasiya texnologiyalarının hazırlanması və tətbiqi sahəsində IT üzrə texniki dəstək, dizayn və tərtibat, rəqəmsallaşdırma istiqamətində aşağıdakı işlər görülmüşdür:***

6.1. Kitabxananın kitab, avadanlıq və işçilərinin əsas binadan yeni binaya köçürülməsindən başlayaraq, kitabların yeni binada yerləşdirilməsi, kartotekadakı kataloqların rəqəmsallaşdırılması, işçilərin iş yerlərinin kompüter avadanlığı ilə təmin olunması, Kitabxana-Xidmət şöbəsinin bütün bölmələrinin biri-biri ilə interqasiyası və ardıcıl işləməsinin təmin olunmasına qədər bütün fəaliyyətlər informasiya texnologiyaları şöbə və bölmələrinin bilavasitə iştirakı ilə həyata keçirilmiş, kitabların emalı zamanı kompüter və informasiya texnologiyalarına aid avadanlıqların istifadəyə yararlı olması təmin edilmişdir. İşçi heyətin hər birinə binaya daxil olmaq üçün buraxılış kartları verilmiş və MEK-in qapı buraxılış-nəzarət sisteminə uyğunlaşdırılmışdır. Yeni binada üç girişi əhatə edən qapılar sistemində olan problemlər aradan qaldırılmış, qapılar vahid nəzarət sisteminə qoşulmuşdur. Serverdə olan bütün avadanlıqların normal vəziyyətdə işlənmə prosesi yerinə yetirilmiş, bütün işçilər fasiləsiz internet ilə təmin olunmuş, kompüterlərdən istifadə üçün şəbəkələr işə salınmış və fasiləsiz iş prosesi təmin edilmişdir. İşçilərin hamısı kompüterlərlə təmin olunmuş, IT avadanlıqlarında baş verən nasazlıqların operativ şəkildə aradan qaldırılması üçün vahid müraciət mərkəzi və nəzarət sistemi qurulmuşdur. Sistemləşdirmə otağı üçün tələb olunan avadanlıqlar (skaner avadanlıqları daxil olmaqla) işlək vəziyyətə gətirilmiş, işçilər avadanlığın istifadəsi üzrə təlimatlandırılmışdır. Məlumat köşkləri üçün ayrı-ayrılıqda informasiya faylları işlənilmişdir. Bina üzrə bütün texniki avadanlığın cari nasazlıqları aradan götürülmüş, e-imzanın fasiləsiz işləməsi təmin olunmuşdur. Kitabxananın qeydiyyat bölməsində

avadanlıqlar qurulmuş, bölmədə çalışan və təcrübə müddəti keçənlər təlimatlandırılmış, bölmə işlək vəziyyətə gətirilmişdir.

6.2. MRY (Milli Rəqəmsal Yaddaş) üçün məlumatların salınması alqoritmi hazırlanmış, "AKADEM KİTAB"ın texniki təminatı, MEK şəbəkəsinə qoşulması, internetə fasiləsiz çıxışla təmin olunması həyata keçirilmiş, MEK üzrə vahid kassa hesabatlığı proqramına qoşulma modulu yazılmışdır.
6.3. Ənənəvi topoqrafik və əlifba kataloqları rəqəmsallaşdırlmış, Word və Excel formatına keçirilmişdir. Borclu oxucular üzrə axtarış məlumat bazası yaradılmış və qeydiyyat bölməsində yerləşdirilmiş, kitabların geriyə qaytarılması prosesi başlanmışdır.

**7.0. *İnnovativ layihələrin hazırlanması və tətbiqi, Vahid İdarəetmə Sistemi üçün kitabxana modullarının hazırlanması və sınaq məqsədi ilə istifadəyə verilməsi*** *(Gündəlik işlərin icrası və "Kitabxana İdarəetmə Sistemi" sınaq proqramının hazırlanması).*

7.1. "Kitabxana İdarəetmə Sistemi" proqramının hazırlanması üçün proqramçılar və layihəçilər qrupu tərəfindən kitabxana işinin analizi aparılmış, MEK-də fəaliyyət göstərən şöbələr üzrə iş prosesləri müəyyənləşdirilmiş, bütün təkliflər nəzərə alınmışdır. İkinci mərhələdə İRBİS proqramı da daxil olmaqla Azərbaycan, Rusiya, İngiltərə, Almaniya kitabxanalarında istifadə olunan proqramlar ilə yaxından tanış olunmuş və təhlili aparılmışdır.

7.2. Verilənlər bazasının strukturu və proqramın funksionallığı müəyyənləşdirilmiş, iki fərqli proqram təminatını - kitabxanaçılıq işini və oxucularla bağlı aparılan xidmət işlərini - özündə əks etdirən "Kitabxana İdarəetmə Sistemi" adlı Windows Application proqramı və göstərilən kitabxana xidmətinin keyfiyyətini artırmaq üçün online çalışan "Kitabxana Xidmət Portalı" adlı Web Application üçün qərar verilmişdir.

7.3. Əməkdaşlar tərəfindən qeydiyyatı aparılmış informasiya vahidləri barədə məlumatın İRBİS proqramında olmasını və bu məlumatların yeni proqramda təkrar işlənməməyə ehtiyacı nəzərə alaraq, məlumatın yeni proqrama daşınması məqsədi qoyulmuş, İRBİS proqramının IT istifadə tərəfləri öyrənilmiş, məlumat strukturu analiz edilmiş və məlumatların daşınması üçün yeni proqram modulu yazılmışdır. Daşınmış məlumatların üzərində iş aparılmış, məlumatlar verilənlər bazasına uyğunlaşdırılmışdır. Nəticədə, İRBİS proqramında qeydiyyatı aparılmış 32 497 sayda informasiya vahidi və 48 786 sayda inventar proqramı verilənlər bazasında istifadəyə hazır formaya salınmışdır.

7.4. "Kitabxana İdarəetmə Sistemi" proqramında "Oxucuların qeydiyyatı" modulu MEK-in xidmətə açılış günü istifadəyə təhvil verilmişdir. Bu modul oxucuların qeydiyyatı, oxucu kartlarının çap edilməsi, məlumatların "KaDe" turniket sistemi "3M" cihazı ilə inteqrasiyanı özündə ehtiva edir.

7.5. Oxucular tərəfindən informasiya vahidlərinin axtarılması, məlumat bazasında mövcud olan və olmayan informasiya vahidlərinin sərbəst şəkildə sifariş edilməsi üçün "Sifarişlərin qəbul edilməsi" modulu hazırlanıb istifadəyə verilmişdir.

7.6. İnformasiya vahidlərinin oxuculara təqdim olunması və təhvil alınması üçün görülən işlərin proqramda yerinə yetirilməsi məqsədilə "Foye əməliyyatları" modulu hazırlanıb istifadəyə verilmişdir.

7.7. Oxucular sifarişini verdikləri informasiya vahidlərini təhvil götürə biləcəkləri zaman onların məlumatlandırılması və götürəcəyi yerin bildirilməsi haqqında böyük ekranlarda xəbərdarlıqların edilməsi məqsədilə "Sifarişlərin izlənilməsi" ekran modulu da hazırlanaraq təhvil verilmişdir.

7.8. İnformasiya vahidlərinin saxlancdakı saxlanma yerlərinin, foyedə təhvil veriləcək operatorların və oxunması nəzərdə tutulan oxu zallarının proqramla müəyyən edilməsi üçün modul hazırlanıb istifadəyə verilmişdir.

7.9. Xidmət sahəsində baş verən əməliyyatlara nəzarət edilməsi və problemlərin anında müəyyən edilərək müdaxilə edilməsi məqsədilə "Oxucu sifarişlərinə nəzarət" ekranı hazırlanıb təhvil verilmişdir. Oxucuların kitabxana xidmətindən istifadə etmələri haqqında rəsmi arayışın proqramdan çap edilməsi

təmin edilmiş, oxucunun sifariş etdiyi kitabların siyahısı və kitabxanada keçirtdiyi müddət əks etdirilmişdir.

7.10. Biblioqrafiya bölməsi üçün sifarişlərin və sorğu olunduqda sifariş əməliyyatlarının da siyahısının müxtəlif formatlarda çap edilməsi üçün hesabat ekranı hazırlanıb təhvil verilmişdir.

7.11. Oxucular tərəfindən sifariş edilmiş informasiya vahidləri haqqında məlumatların saxlancda qəbul edilməsi və görülən əməliyyatların proqram üzərindən yerinə yetirilməsi üçün "Saxlanc əməliyyatları" modulu hazırlanıb istifadəyə verilmişdir.

7.12. Daxil olan informasiya mənbələri barədə məlumatların beynəlxalq təsnifata inteqrasiya edilməsi, eləcə də Vahid İdarəetmə Sistemində qeydiyyat və nəzarət imkanı verən "Komplektləşdirmə əməliyyatları" və "Kataloqlaşdırma əməliyyatları" modullarının böyük bir qismi hazırlanmış və 31.01.2016 tarixinə qədər istifadəyə verilməsi planlaşdırılmışdır.

Qeyd etmək lazımdır ki, universal formatda hazırlanmış modullar eyni zamanda ISO, Azərbaycan kitabxana qeydiyyat-hesabat standartları, eləcə də MARC 21 standartına cavab verir və istənilən sorğunu cavablandıran hesabatı ixrac etmək imkanındadır.

Hesabat təqdim olunan tarixə 22 236 nüsxə ədəbiyyat yeni sistemə daxil edilmiş və elektron kataloqda oxucuların istifadəsinə verilmişdir.

"Kitabxana İdarəetmə Sistemi" proqramının verilənlər bazası "MSSQL 2012", proqram kodları "Visual Studio 2012" üzərindədir. Hazırkı dövrə qədər "3M", "KaDe" və "CardPrinter" qurğuları ilə inteqrasiya edilmişdir.

**8.0. *İnformasiya mənbəyinin konveyer üsulu ilə emal edilməsi və prosesin tam şəkildə Vahid İdarəetmə Sisteminə inteqrasiyası məqsədilə*** Kitabxana-xidmət şöbəsinin yeni təlimatlarında, eləcə də bölmələr üçün hazırlanmış yeni əsasnamələr və vəzifə öhdəliklərini əks etdirən sənədlərdə ardıcıllıq nəzərə alınmış, işçilər təlimatlandırılmış və elektron resurslar ilə iş üzrə təlimatlar verilmişdir.

8.1. Fondların formalaşdırılması: informasiya fondlarının zənginləşdirilməsi və pulsuz məcburi nüsxələrin kitabxanaya daxil olması məqsədilə MEK nəşriyyatlar ilə qanun və icra prosedurlarının verdiyi imkanlara əsaslanaraq sistemləşdirilmiş şəkildə kommunikasiya qurmuşdur. Nəticədə 582 ədəd pulsuz məcburi nüsxə kitab, 576 ədəd 93 adda məcburi nüsxə jurnal, 74 adda məcburi nüsxə qəzet, 145 adda elmi jurnal daxil olmuşdur. 2015-ci ildə kitabxanaya hədiyyə qismində daxil olan kitabların sayı üzrə ən yüksək göstərici (8 692) qeydə alınmışdır. Beynəlxalq Mübadilə vasitəsi ilə ABŞ Konqres Kitabxanası, Miçiqan Universitet Kitabxansı, Bolqarıstan Elmlər Akademiyası Kitabxanası, Rumıniya Akademiyasının Kitabxanası, Ohridski adına Sofiya Universitet Kitabxanası, Yaponiya Kimya Cəmiyyəti, Macarıstanın Elmi Ədəbiyyat üzrə Mübadilə Mərkəzi, Yaponiya EA Kitabxanası, Berlin-Brandenburq EA Kitabxanası, Almaniyanın Zooloji toplular üzrə Kitabxanası, Çin Milli Kitabxanası, Potsdam Universitet Kitabxanası, Bavariya EA kitabxanası, Qazi -Xosrov Kitabxanası (Bosniya və Herseqovina), Türk dünyası Araşdırmaları Vakfı, Praqa xalq Kitabxanası, Polşa EA Riyaziyyat İnstitutunun Kitabxanası, Finlandiyanın Nəşrlərin Mübadiləsi Mərkəzi, Humanitar və Sosial elmlərin sənədləşdirilməsi Mərkəzi (Fransa), Rusiya Milli Kitabxanası, Rusiya Dövlət Kitabxanası, Moldova EA Kitabxansı və Belarusiya Milli Kitabxanasından 151 adda kitab və 597 ədəd elmi jurnal daxil olmuşdur. UNESCO tərəfindən, Amerika-Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti tərəfindən xarici dildə 3 933 jurnal, Azərbaycan və İngilis dillərində 921 nüsxə kitab MEK-ə hədiyyə edilmişdir. AMEA Milli Tarix Muzeyi tərəfindən 1 116 ədəd xarici dildə tarixi və elmi əhəmiyyət daşıyan ədəbiyyat MEK-ə hədiyyə edilmişdir. Fondların elektron resurslar ilə zənginləşdirilməsi: 947 ədəd tarixi əhəmiyyətli e-kitab, 14 ədəd iqtisadiyyat sahəsində e-ədəbiyyat, 30 000 elektron jurnal, 10 e-məqalə bazası və axtarış sistemlərinə çıxış əldə olunub: EBSCO Discovery Service, BIOONE, EBSCO Premıer, Edward Elgar Journals & Development Studies E-books, IOPSCIENCE, Oxford Englısh Dictionary&Reference ONLINE, Royal Society Journals Collectıon, LANDESBIBLIOTEK, ASNAD.

8.2. Daxil olan ədəbiyyatın Komplektləşdirmə və Kataloqlaşdırma bölmələri tərəfindən sistemləşdirilməsi. Nadir Kitab Fondu tam şəkildə, Şərq ədəbiyyatı fondu qismən çiplənmiş və RFİD sistemə qoşulmuşdur. Cəmi 230 000 çip və 150 000 barkod vurulmuşdur. 22 236 nüsxə ədəbiyyat

Azərbaycan və xarici dillərdə (Abbas Zamanovun və Amerika-Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin kolleksiyaları da daxil olmaqla) yeni hazırlanmış sistemləşdirilmə cədvəlinə salınmış və Fonda təhvil verilmişdir.

8.3. Fondların mühafizəsi əsas saxlancda, yardımçı fondlarda və Nadir Kitab fondunda həyata keçirilir. Kitabların qeydiyyat, təhvil-təslim modulları hazırlanmış və istifadəyə verilmişdir. Kitabların məhlul və soyuducu kamera vasitəsilə dezinfeksiyasına başlanılmışdır. Kitabların mühafizəsi məqsədilə rəqəmsallaşdırma həyata keçirilir.

8.4. Kitabxana yeni xidmətlərə başlayan gündən 3 ay ərzində "Oxuculara və İstifadəçilərə Xidmət" bölməsi və "Oxu Zallarına Nəzarət" bölməsi tərəfindən 400 nəfər oxucu qeydiyyatdan keçmiş, 4 000-dən artıq sifariş qəbul edilib yerinə yetirilmiş, oxuculara müxtəlif tipli xidmətlər göstərilmişdir. Yardımçı fondlarda - Humanitar və İctimai Elmlər, Fizika, Riyaziyyat, Texnika, Biologiya, Tibb, Kimya Elmləri, Yer Elmləri, Dövri Mətbuat, Dissertasiya və Avtoreferatlar, Şərq Ədəbiyyatı və Qərbi Avropa Ədəbiyyatı üzrə informasiya mənbələri seçilib yerləşdirilmişdir.

**9.0.** ***Vəsaitlərin xərclənməsi***. 2015-ci ildə həllini gözləyən və vəsait tələb edən ehtiyaclar qiymətləndirilmiş və AMEA rəhbərliyi qarşısında səsləndirilmişdir. MEK-ə 2015-ci il üzrə ayrılmış vəsait tam təyinatı üzrə xərclənmiş, müəyyən büdcə xərclərinə qənaət olunmuşdur. Maliyyə ilinin əvvəlində Maliyyə Nazirliyi tərəfindən büdcə təşkilatlarına verilmiş təlimata əsasən mühafizə olunmayan vəsaitlərə dair büdcəyə yenidən baxılmış, ən zəruri fəaliyyətlər icazə verilən ¾ hissəyə salınmışdır. Mühasibatlığın işi elektronlaşdırılmış, sənədlər, qeydiyyat və tam şəkildə bərpa edilmiş hesabat formaları nizamlanmış, hər işçiyə fərdi qeydiyyat kartı açılmış, karta mühasibatlığa dair informasiya salınmış, işçilərin sorğularının tam şəkildə cavablandırılması sürətlənmiş və şəffaflıq təmin olunmuşdur. Əlaqəli şöbə və bölmələrin təqdim etdiyi sənədlərlə üzləşdirmələr aparılmış, bu və ya digər səbəbdən son 3 il ərzində baş vermiş təhriflərin düzəldilməsi həyata keçirilmişdir. Dövlət Soial Müdafiə Fondu, Dövlət Statistika Komitəsi, Vergilər Departamentinə aylıq və rüblük hesabatlar vaxtında və dəqiq təqdim olunmuşdur. Qeyd olunan bu əməliyyatların hamısı mütəmadi olaraq hesablaşma cədvəllərində, memorial orderlərdə və baş kitabda öz əksini tapmışdır.

**10.0.** ***Beynəlxalq və ictimai əlaqələr və tədbirlər.***

10.1. MEK-in cari fəaliyyətini, həyata keçirdiyi layihələri, zəruri müraciətlərini geniş ictimaiyyətə çatdırmaq üçün Azərbaycan və İngilis dillərində müasir tərzdə daim yenilənən web-sayt (www.mek.az, www.csl.az) yaradılmış və facebook səhifəsi (AMEA Mərkəzi Kitabxana/İnformasiya Resursları Mərkəzi) açılmışdır. MEK-də baş verən önəmli hadisələr və keçirilən tədbirlər barədə press-relizlər hazırlanmış, KİV-də, müxtəlif web-resurslarda, kitabxananın rəsmi saytında, facebook səhifəsində yerləşdirilmiş və media agentliklərinə təqdim edilmişdir. Bu vaxta qədər MEK-in rəsmi internet saytında və Facebook səhifəsində 100-dən çox xəbər və tədbirlər barədə press-relizlər yerləşdirilmiş, rəsmi dövlət qəzetləri və digər media qurumları ilə əlaqələr yaradılmışdır.

10.2. Azərbaycanda fəaliyyət göstərən bir sıra mədəniyyət qurumları və arxiv idarələri ilə çap və elektron informasiya resursları üzrə qarşılıqlı mübadilə aparmaq və birgə tədbirlər keçirmək üçün yazışmalar aparılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezident kitabxanası, Respublika Elmi Texniki kitabxana, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, F.Köçərli adına Uşaq kitabxanası, AMEA tarix muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Cəlil Məmmədquluzadənin ev muzeyi, Üzeyir Hacıbəylinin ev muzeyi, Sabir adına kitabxana ilə MEK-in yeni məqsədləri ətrafında müzakirələr aparılmışdır.

10.3. Səfirliklər və diplomatik nümayəndəliklər ilə əməkdaşlıq**.** Çap və elektron formada informasiya mübadiləsi aparmaq, birgə layihələr, konfranslar, simpoziumlar və sərgilər keçirmək məqsədilə 60-a yaxın ölkənin Azərbaycandakı səfirliklərinə müraciət məktubları göndərilmişdir. Kolumbiya, İsveç, Türkmənistan, Fələstin, Cənubi Koreya, Rusiya, BƏƏ, Əfqanıstan, Mərakeş, Misir, Yunanıstan, Polşa və Macarıstan kimi ölkələrin Azərbaycandakı səfirləri və diplomatik nümayəndələri ilə görüşlər keçirilmiş, ölkə səfirləri kitabxanada qonaq olmuş və kitabxana ilə yaxından tanış olmuşlar. İkitərəfli əməkdaşlıq memorandumları müzakirə olunmuşdur. Keçirilən hər bir görüşdə səfirlik və elmi

təşkilatların vasitəçiliyi ilə Azərbaycanın tanıdılması, eləcə də iki ölkənin elm və mədəniyyət sahəsindəki temaslarının gücləndirilməsi üçün MEK ilə birgə layihələrin həyata keçirilməsi təşəbbüsləri irəli sürülmüşdür. Səfirlərlə keçirilən görüşlərin nəticəsi kimi, Misir Mədəniyyət Mərkəzinin direktoru Dr. Əhməd Sami Əl-Aydi ilə ərəb dili kursları razılaşdırılmış, Əməkdaşlıq haqqında Memorandum Misir XİN-ə göndərilmiş, Ərəb dilində jurnalları elektron variantları ilə birgə kitabxanaya hədiyyə etmişdir. Mərakeş Haşimi Krallığının Azərbaycandakı səfiri cənab Həsən Hami və Mərakeş Milli Kitabxanasının direktoru, professor Driss Khrouz, Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki səfirliyinin missiya rəhbərinin müavini Abdulla Yasim Əl-Şəmsi BƏƏ-nin araşdırma mərkəzlərinin 40 illik tədqiqatları nəticəsində ərsəyə gələn, ölkəsinin tarixini, elmini və mədəniyyətini əks etdirən kitabları və əlavə 100 kitab hədiyyə etmişdir. İraqın Azərbaycandakı səfiri cənab Heyder Şiə ƏL-Bərrak Dr. Əli Naşmi Həmidinin MEK-də mühazirəsini təşkil etmiş və kitablar hədiyyə etmişdir. Türkmənistanın ölkəmizdəki səfiri cənab Toyli Komekov "Туркменистан: стратегия мира и развития" adlı kitabı, türkmən milli xalçaçılıq ənənələrini əks etdirən, qədim xalça nümunələrinin fotolarından ibarət "Canlı əfsanə" adlı kitabını və digər kitabları MEK-ə hədiyyə etmişdir. Kolumbiyanın Azərbaycandakı səfiri cənab Assad Xose Pena Ədəbiyyat üzrə Nobel mükafatı laureatı Qabriel Qarsiya Markesin seçilmiş əsərlərinin ingilis və ispan dillərinə tərcümə edilmiş nəşrlərini kitabxanaya hədiyyə etmişdir. MEK isə öz tərəfindən Azərbaycan tarixi və incəsənətinə dair ədəbiyyat hədiyyə etmiş və əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Bundan əlavə, Rusiya, Cənubi Koreya və Əfqanıstanın ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə görüşlər keçirilmiş və ikitərəfli əməkdaşlığa dair razılıq əldə olunmuşdur.

10.4. Tədbirlərin keçirilməsində MEK yeni "multiməkan" yanaşması tətbiq etmiş, tədbirlər mövzuya uyğun bədii formada tərtib edilmiş, tədbirlərin keçirildiyi zaman bütün texniki vasitələr işlək vəziyyətə gətirilmiş və fasiləsiz işi təmin olunmuşdur. Hər tədbir üçün mövzuya uyğun olaraq ədəbiyyat rəqəmsallaşdırılmış, virtual sərgi üçün web-dizayn işləri həyata keçirilmiş, sərgilər, slayd-şoular, videofilmlər, videofayllar hazırlanmışdır.

10.5. AMEA-nın 70 illik yubileyi ərəfəsində AMEA-nın 15 təsisçisi barədə məlumatlılığı gücləndirmək məqsədilə təsisçilərin büstləri yanına ümumi görüntüyə xələl gətirməyən Azərbaycan, Rus, İngilis, Ərəb və Fars dillərində nəfis dizaynda hazırlanmış məlumat lövhələri yerləşdirilmişdir.
10.6. MEK-in mərhum direktorlarının adları həkk olunmuş "Yaddaş divarı" qurulmuşdur.
10.7. Müxtəlif zamanları, ölkələri, dilləri, mədəniyyətləri birləşdirən "500 kəlam" videofilmi hazırlanmış və videowall-da yerləşdirilmişdir.
***10.8. İctimai əhəmiyyətli tədbirlər:***

**AMEA MEK tərəfindən təşkil olunmuş tədbirlər:**

- ✓ AMEA MEK-in 90 illiyinə həsr olunmuş MEK-in Azərbaycan Ərəbşünaslar şəbəkəsi və Gənc tərcüməçilər şəbəkəsi ilə əməkdaşlığı çərçivəsində təcrübə proqramının təqdimat mərasimi - 16 fevral 2015-ci il

- ✓ Akademik Bəkir Nəbiyevin "Üzeyir Hacıbəylinin Ömürnaməsi" adlı kitabının təqdimatı (Nizami adına Ədəbiyyat İnstitutu ilə birlikdə) - 21 sentyabr 2015
- ✓ "Mədəniyyətlərarası dialoqun gücləndirilməsində Azərbaycan mədəni irsinin təbliğinin rolu" mövzusunda sərgi (Azərbaycan Respublikasının Polşa və Macarıstan respublikalarındakı səfirlikləri ilə birlikdə) - 13 oktyabr 2015
- ✓ Mərkəzi Elmi Kitabxananın rəsmi açılış mərasimi - 14 oktyabr 2015
- ✓ Akademik Bəkir Nəbiyevin 85 illik yubileyi, "Vətəndaş. Alim. Ziyalı" biblioqrafik sorğu kitabının təqdimatı (Nizami adına Ədəbiyyat İnstitutu ilə birlikdə) - 04 noyabr 2015
- ✓ "Müasir Rusiya nəyi mütaliə edir". Beynəlxalq tədbir (Rusiya Dövlət Kitabxanası ilə birlikdə) - 18 dekabr 2015
- ✓ Azərbaycanın regional kitabxanalarına kitablar bağışlanılıb - 2015

**MEK-də keçirilmiş digər təşkilatların tədbirləri:**

- ✓ Rusiya Herontologiya və Heriatriya Assosiasiyası tərəfindən "Uzunömürlülüyün sirrləri". Elmi mühazirə (Fiziologiya institutu ilə birlikdə) - 12 may 2015

- ✓ Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Professor Vladimir Zaxarovun "İnkişafın homeostazı: ekoloji və sosial aspektləri". Elmi mühazirə (Fiziologiya İnstitutu ilə birlikdə) - 2 iyun 2015
- ✓ Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları ilə birlikdə "Fövqəladə hallar zamanı davranış modulu" mövzusunda seminar-məşğələ - 03 iyun 2015

- ✓ “Sosial media və milli dəyərlər”. Təlim - 29 iyul 2015
- ✓ “Yanğından mühafizə üsulları və onun həyata keçirilməsində müəssisə və təşkilatların üzərinə düşən vəzifələr” mövzusunda seminar-məşğələ (Respublika Mülki Müdafiə Qoşunları və AMEA II Xüsusi İdarəsi ilə birlikdə) – 8 oktyabr 2015
- ✓ Bakıda “Avropa gənc alimlərinin genosid faktlarına baxışları” mövzusunda beynəlxalq forumda çıxış - Oktyabr 2015
- ✓ “Kitabi-Dədə Qorqud və Haynrix Fridrix Fon Dits-200” mövzusunda Beynəlxalq Şagird Konfransı (Azərbaycan Respublikası Prezidenti yanında “Bilik” Fondu ilə birlikdə) - 10 dekabr 2015
- ✓ “Kitabi-Dədə Qorqud” abidəsinin elm aləminə məlum olmasının 200 illiyinə həsr olunmuş “Epos və etnos” mövzusunda beynəlxalq simpozium (Folklor İnstitutu ilə birlikdə).
- ✓ “Respublikanın ictimai-siyasi həyatında Azərbaycan Milli Elmlər Akademiyası, Respublika Ağsaqqallar Şurası və gənc alimlərin rolu” mövzusunda toplantı.
- ✓ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə “IV Bakı Beynəlxalq kitab sərgi-yarmarkası”nda iştirak. Çap materialları və videofilmin təqdimatı - 16-17 sentyabr 2015
- ✓ Türkmənistanın Aşqabad şəhərində keçirilən “X Beynəlxalq kitab sərgi-yarmarkası”nda iştirak, çap və elektron materiallaırn təqdimatı, müsabiqədə iştirak və qalib adının qazanılması - 18-24 sentyabr 2015
- ✓ Türkmənistanın Aşqabad şəhərində “Kitab tərəqqi və əməkdaşlıq yoludur” adlı beynəlxalq elmi konfransda çıxış. 18-24 sentyabr 2015

- ✓ “İstanbul Beynəlxalq Kitab-Sərgi yarmarkası”nda elmi jurnallar və videotəqdimat ilə iştirak – 6-10 noyabr 2015

**11.0.** ***İşçilərin sosial müdafiəsi.*** İşçilərin əmək hüquqlarının təmin edilməsi üçün ödənişsiz hüquqi xidmət, sağlamlıq hüququnun təmin edilməsi üçün ödənişsiz səhiyyə xidmətləri göstərilir. Profilaktika və diaqnostik müayinə məqsədilə MEK-in İctimai Səhiyyə bölməsi Səhiyyə Nazirliyinin bilavasitə iştirakı ilə İİV-infeksiyasının, onkoloji, oftalmoloji və endokrinoloji xəstəliklərin aşkarlanması üçün 963 müayinə və konsultasiya (oftalmoloq, onkoloq, ginekoloq, mammoloq, endokrinoloq, ekspress qan analizi, qalxanvari vəzin ultrasəs müayinəsi, mammoqrafiya, göz dibinin müayinəsi, göz təzyiqinin ölçülməsi, görmə qabiliyyətinin yoxlanılması, antropoloji ölçmələr, qanda şəkərin müəyyən edilməsi və arterial təzyiqin ölçülməsi) aparılmış, orta hesabla işçilərin sosial xərcləmələr büdcəsinə 20 000 AZN qənaət edilmişdır. Sosial aktivliyi artırmaq məqsədilə Qızıl Aypara Cəmiyyətinin MEK-lə birgə qanvermə aksiyası keçirilmişdir. MEK-in strukturunda yeni qurum kimi yaradılan İctimai Səhiyyə bölməsi tərəfindən müntəzəm olaraq peşə xəstəlikləri, peşə zərərləri, mövsümü sağlamlıq problemləri ilə bağlı məlumatlandırma aparılmış, binanın optimal sanitar vəziyyəti təmin edilmiş, işçilərə iş yerlərində ilkin və təcili tibbi yardım xidmətləri göstərilmiş, işçilərə ambulator kartlar açılmışdır.

## C: NƏTİCƏ

Beləliklə, hesabat ili ərzində kitabxana əsas binadan yeni binaya planlaşdırılmış şəkildə sürətli tərzdə köçürülmüş, kitab, jurnal və qəzet fondları yoxlanılmış, ənənəvi kataloqlar bərpa edilmiş və nizamlanmış, mühafizə sistemi qurulmuş, struktur və kadr islahatları aparılmış, konveyer üsulu ilə informasiya emalı qurulmuş, prosedurlar və testlər hazırlanmış və tətbiq olunmuş, heyət təlimatlandırılmış, interqasiya proseslərini təmin etmək üçün universal proqram modulları hazırlanmış, kitabxana xidmətə istifadəyə verilmişdir. Vaxt və resurs azlığına baxmayaraq, kitabxananın beynəlxalq və ictimai əlaqələrini gücləndirmək məqsədilə çoxsaylı sərgilər və tədbirlər keçirilmişdir. Mərkəzi Elmi Kitabxana öhdəsinə düşən vəzifələri tam şəkildə icra etmiş, əlavə təşəbbüslər reallaşdırmış və kitabxana informasiya xidmətinin növbəti - **tətbiqi** - mərhələsinə keçmişdir.

## D:PROBLEMLƏR

Hər yeni inşa edilmiş binada olduğu kimi, MEK-in istifadəyə verilmiş binasının sahəsinə (24.080 kv/m) mütənasib çoxsaylı havalandırma, elektrik, suaxıtma problemlərinin mövcudluğu; dünya maliyyə böhranı nəticəsi olaraq ümumi büdcə vəsaitinin kifayət etməməsi; kitabxana işçilərinin maaşının

ümumi səviyyəsinin aşağı olması; məvaciblərə indeksləşmə mexanizmi və resurslarının olmaması; təşkilatlar arasında əlaqələndirmə və məlumatlandırmanın, eləcə də e-resurslardan istifadənin zəifliyi; müasir kitabxana-informasiya sisteminə inteqrasiya olunmaq üçün proqram təminatı və lisenziyalarının, eləcə də zəruri avadanlıqların alınması üçün büdcədə vəsaitin olmaması.

**F:TƏKLİFLƏR**

**2016-cı ildə aşağıdakı təkliflərin dəstəklənməsi məqsədə uyğun olardı:**

1. Mərkəzi Elmi Kitabxananın binasının təmir-bərpa işlərinə əlavə vəsait ayrılması.
2. AMEA işçilərinin oxucu kartlarının alınması və illik abunə haqqının ödənilməsi üçün mərkəzləşdirilmiş şəkildə institut və təşkilat büdcələrindən MEK-ə vəsaitin köçürülməsi.
3. Mərkəzi Elmi Kitabxananın respublika miqyaslı yeganə elmi kitabxana olmasını, kitabxananın fəaliyyətinin ictimai əhəmiyyətini və kitabxana-informasiya sistemində islahatların aparılmasını nəzərə alaraq Nazirlər Kabineti qarşısında Mərkəzi Elmi Kitabxananın işçilərinin maaş həddinin artırılması üçün vəsatətin qaldırılması.
4. Valyuta məzənnəsinin işçilərin sosial statusu və mənəvi durumuna, və bu yolla kitabxananın tikinti və avadanlığına qoyulan vəsaitlərin effektiv çalışdırılmasına mənfi təsirini nəzərə alaraq, əmək haqqlarının indeksləşdirilməsi.
5. AMEA müəssisə və təşkilatları arasında kommunikasiyanın gücləndirilməsi və elmi məlumat və hadisələrin sürətli mübadiləsi məqsədilə "*AMEA təşkilat və müəssisələri*" elektron kommunikasiya qrupunun yaradılması, RH tərəfindən qrupa inzibatçı təyin olunması və qrupun kommunikasiya imkanlarının optimallaşdırılması.
6. MEK-in müasir kitabxana-informasiya sisteminə inteqrasiyası məqsədilə proqram təminatı və lisenziyalarının, eləcə də zəruri avadanlıqların alınması üçün vəsaitin ayrılması.

Hazırladı: Leyla İmanova, AMEA MEK direktoru